# İqtisadiyyatın Cümhuriyyət dövrü

### *Qısa zamanda qurulan iqtisadi əlaqələr...*

**Ötən əsrin əvvəllərində Şərqdə bir Günəş doğdu. 1918-ci il mayın 28-də demokratik və ümumbəşəri dəyərlərə söykənən ilk respublika - Azərbaycan Xalq Cümhuriyyəti (AXC) quruldu. Az yaşadı, amma əsrlərə bərabər işlər gördü. Cəmi 23 ay ömür sürdü, amma çox şərəfli və mürəkkəb bir yol keçdi. Tez süqut etsə də, onun kütlələrin şüurunda yaratdığı milli istiqlal ideyaları əbədiyaşar oldu.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunub. Sərəncamda nəzərdə tutulan işlər aidiyyəti qurumlar tərəfindən layiqincə yerinə yetirilir. Artıq həm bölgələrdə, həm də bir sıra ölkələrdə Cümhuriyyətin 100 illiyi yüksək səviyyədə qeyd olunur.

İqtisadiyyat Nazirliyinin də həm tələbələr arasında elan etdiyi müsabiqə, həm jurnalistlərin Cümhuriyyət dövrünün iqtisadiyyatı ilə bağlı ciddi araşdırma aparmasını özündə ehtiva edən yazı müsabiqəsinin elan etməsi müsbət haldır. Ən azından ona görə ki, jurnalistlərin ciddi səyi ilə hazırlanan yazılar geniş ictimaiyyət tərəfindən oxunacaq və bu yazılar vasitəsi ilə geniş oxucu kütləsi 18 ay ömür sürmüş, şərqin ilk demokratik Respublikasının qısa zamanda nə kimi iqtisadi dividentlər qazandığının şahidi olacaqlar. Üstəlik bu işlər şimalda Rusiya kimi İmperiyanın, Cənubda İran kimi əzəmətli dövlətin əhatəsi arasında çox məharətlə və ustalıqla aparılırdı.

Mən də müsabiqəyə yazı hazırlayarkən qısa bir araşdırma apardım. Araşdırmalar zamanı məlum oldu ki, 1918-ci ildə bərqərar olunan Cümhuriyyətin geniş iqtisadi konsepsiyası olub. Bu konsepsiyada həm neft-qaz sənayesinin inkişafı, həm kənd təsərrüfatı və orta sahibkarlığın ayaqüstə durması üçün bir sıra müddəalar öz əksini tapıb. Təsadüfi deyil ki, o zaman fəaliyyət göstərən Cümhuriyyətin Parlamentinə iqtisadi sahənin inkişafı ilə bağlı onlarla sənəd daxil olub.

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) beynəlxalq iqtisadiyyat kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Elşən Bağırzadə deyir ki, Qafqaz Azərbaycanı XIX əsrin 30-cu illərindən etibarən tam şəkildə çar Rusiyasının müstəmləkəsinə çevrilmişdi və Azərbaycan Xalq Cümhuriyyəti qurulana qədər olan təxminən yüz illik dövr ərzində məmləkətimizdə müstəmləkə iqtisadiyyatı hökm sürürdü. Onun sözlərinə görə, resursları və təbii sərvətləri istismar edilən Azərbaycan imperiyanın başlıca xammal təchizatçılarından biri kimi çıxış edən müstəmləkə ölkəsi idi. Azərbaycan Xalq Cümhuriyyətinə məhz belə bir iqtisadiyyat miras qalmışdı. Şübhəsiz ki, müstəqil gənc cümhuriyyətin iqtisadi siyasətinin başlıca hədəfi bu mirasın üzərində milli iqtisadiyyatı formalaşdırmaq olmalı idi və o dövrdə Cümhuriyyətin ideoloqları da, onu idarə edənlər də məhz bu yolu seçmişdilər: "Azərbaycan Xalq Cümhuriyyəti çox ağır hərbi-siyasi və qeyri-müəyyən beynəlxalq münasibətlər şəraitində 23 aylıq qısa zaman kəsiyinə milli iqtisadiyyatın formalaşdırılması istiqamətində çox böyük işlər görə bildi. "Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldadır" fəlsəfəsinə əsaslanan Cümhuriyyətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri, ilk növbədə, ölkədə kapitalist münasibətlər sisteminin inkişaf etdirilməsi oldu. Bunun üçün o dövrdə regionumuzda geniş yayılmış bolşevik ideyalarının əksinə olaraq, mülkiyyətin çoxnövlülüyü qanunla təsbit edildi və müstəqil Azərbaycan iqtisadiyyatında iqtisadi subyektlərin başlıca stimul mənbəyi olacaq xüsusi mülkiyyətin üzərində dayanıldı. Bundan başqa, daşnak Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti tərəfindən neft sənayesinin və ticarət donanmasının milliləşdirilməsi ilə bağlı verilən qərarlar ləğv edildi, neft mədənləri, zavodlar, ticarət gəmiləri və onların idarəçiliyi əvvəlki sahiblərinə qaytarıldı. Milliləşdirilən şirkətlərdən biri də məşhur "Nobel qardaşları" şirkəti idi və o da sahibinə geri verildi".

Ekspert deyir ki, o dövrün iqtisadi siyasətinin digər bir istiqaməti maliyyə sisteminin yenidən qurulması və yeni əsaslarla tənzimlənməsi idi: "Qısa müddət ərzində Azərbaycan Dövlət Bankı adlanan Mərkəzi Bank quruldu və bu bankın sədrliyinə Azərbaycanın ilk iqtisadçılarından olan Məhəmmədhəsən bəy Baharlı gətirildi. Mərkəzi Bank pul kütləsinin və bank fəaliyyətinin tənzimlənməsinə və inflyasiyanın nəzarət altına alınması işinə başladı. Bu arada Azərbaycan "Bakı bondları" adlanan milli valyuta dövriyyəyə buraxıldı. Dövlət büdcəsinin dayanıqlılığını təmin etmək məqsədilə birbaşa və dolayı vergilər, eləcə də gömrük rüsumları tətbiq edildi. Maliyyə bazarının inkişafı istiqamətində atılan mühüm addım isə Bakı bələdiyyə idarəsinin istiqrazlar buraxmağa başlaması oldu. Bütövlükdə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyət göstərdiyi müddət ərzində maliyyə, vergi, bank sahələrini əhatə edən 82-dən çox qanun layihəsi hazırladı və onların böyük əksəriyyətini qəbul etdi.

Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə acınacaqlı vəziyyətə düşmüş neft sənayesini və nəqliyyat sistemini də yenidən canlandırdı. İlk növbədə, dağıdılmış Bakı-Batumi neft kəməri bərpa edildi, Bakı-Culfa dəmir yolu inşa olundu, Kür çayı üzərindən körpü salındı və Xəzər Dəniz Gəmiçiliyinin işi yenidən qurulmağa başlandı. Bütün bunlar Azərbaycanın xarici iqtisadi əlaqələrinin bərpası və inkişaf etdirilməsi baxımından fövqəladə əhəmiyyət daşıyırdı. Cümhuriyyət hökuməti ölkə iqtisadiyyatının inkişafı baxımından xarici investisiyaların əhəmiyyətini dərk edir və əcnəbi sahibkarlar üçün əlverişli şərait yaratmağa çalışırdı. Bu yanaşmanın bariz nümunəsi kimi, Böyükşor gölünün bir hissəsinin "Nobel qardaşları" şirkətinə icarəyə verilməsi haqqında müddəti başa çatmış müqavilənin vaxtının uzadılması haqqında qərarı göstərmək olar. Belə ki, müqavilə bəzi dəyişikliklərlə yenidən bağlandı və şirkətin öz fəaliyyətini davam etdirməsinə şərait yaradıldı. Xarici investisiyalarla yanaşı, xarici ticarət də Azərbaycan Xalq Cümhuriyyətinin diqqət mərkəzində olan sahə idi. Bu istiqamətdə milli iqtisadiyyatın tələblərinə uyğun olaraq, ixracın stimullaşdırılması, idxalın isə milli iqtisadi mənafelərə uyğun şəkildə məhdudlaşdırılması istiqamətində qanunlar qəbul edildi. İxracı qadağan olunan bir sıra məhsulların ixracına sərbəstlik verildi, ölkə üçün zəruri olan 200-dən çox məhsulun idxalı gömrük rüsumlarından azad edildi və gömrük qaçaqmalçılığı ilə ciddi mübarizəyə başlanıldı. Bununla yanaşı, xarici ticarəti maliyyələşdirmək məqsədilə qısa müddət ərzində 20 milyon manatlıq fond yaradıldı və bu fonddan xarici ticarət əməliyyatlarının kreditləşdirilməsində istifadə edilməyə başlandı".



### *Yeni ölkələrlə səmərəli əlaqələr*

Azərbaycan Xalq Cümhuriyyəti xarici iqtisadi siyasətindən danışan E. Bağırzadə bildirir ki, bütövlükdə əvvəllər qurulmuş iqtisadi əlaqələrin qorunub saxlanılmasına və yeni ölkələrlə səmərəli əlaqələrin yaradılmasına çalışırdı: "Bunun üçün ilk növbədə diqqət Azərbaycanın inkişaf etmiş dünyaya tranzit çıxışını təmin edən Gürcüstanla iqtisadi əlaqələrin bərpasına yönəldildi. Belə ki, Gürcüstanla birillik müddətinə ticarət və nəqliyyat üzrə müqavilə imzalandı və bu müqaviləyə əsasən iki ölkə arasında xarici ticarət kifayət qədər liberallaşdırıldı və Bakı neftinin Batumi üzərindən dünyaya ixracı təmin edildi. O dövrdə Azərbaycan Gürcüstana da neft ixrac etməyə başladı. Neftin bir hissəsi tranzit istifadəyə görə Gürcüstana pulsuz verilir, bir hissəsinin əvəzinə isə ağac kömürü, lobya, kələm, şəkər, avtomobil şini kimi məhsullar alınırdı. Gürcüstan yolunun açılması Azərbaycanın digər ölkələrlə də ticarət əlaqələri üçün imkanlar yaratdı. Belə ki, o dövrdə Azərbaycan əsasən Gürcüstan yolu ilə Ukraynadan taxıl idxal edir, Türkiyə və digər Qərb ölkələrinə isə neft və neft məhsulları göndərirdi. Məsələn, İtaliyaya ixrac edilən ağ neft və mazutun əvəzinə bu ölkədən sənaye malları, eləcə də ayaqqabı idxal olunurdu. Habelə ABŞ, Fransa, İngiltərə, Almaniya kimi ölkələrlə də neft ixracı, əvəzində isə sənaye məhsullarının idxalı üzrə müvafiq razılaşmalar əldə edilmişdi. Təbii ki, xarici iqtisadi əlaqələrdə Azərbaycan Xalq Cümhuriyyəti üstünlüyü qonşu ölkələrə verirdi. Qısa müddət ərzində İran, Dağıstan və Orta Asya ölkələri ilə iqtisadi əlaqələr qurulmuşdu. Hətta özünün ağır maliyyə vəziyyətinə baxmayaraq, o dövrdə Dağıstana 50 milyon manat məbləğində yardım əlini də uzatmışdı və bu məbləğ Cümhuriyyətin dövlət büdcəsinin təxminən 12 faizindən çoxunu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platforması bütövlükdə sosialyönümlü platforma idi. Əhalinin rifah halının, əmək şəraitinin yaxşılaşdırılmasına xüsusi önəm verilirdi. Qısa müddət ərzində dövlət bölməsində çalışanların əməkhaqları artırıldı, ailəli vətəndaşlara ayda 360 manat, digərlərinə isə 120 manat məbləğində əlavə pul vəsaitinin verilməsi haqqında qərar qəbul edildi, əmək şəraitinin və iş saatlarının tənzimlənməsi ilə bağlı qaydalar tətbiq olunmağa başlandı".

Sahibkarlığın, xüsusən milli sahibkarlığın inkişafı daim diqqət mərkəzində idi. Sahibkarların parlamentin və hökumətin işində aktiv iştirak etməsinə şərait yaradılırdı. Böyük ədibimiz Yusif Vəzir Çəmənzəminli özünün "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" əsərində o dövrdə milli sahibkarlığın inkişafı haqqında belə yazırdı: "Bu təşəbbüskar və zəkalı millət milli istiqlalı sayəsində əcnəbi sərmayədarlar ilə rəqabət edəcək səviyyədə bir qüvvəyə çevrildi: bir çox milli fabriklər açıldı, şirkətlər meydana gəldi".

İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, i.f.d. Seyfəddin Səməndərov isə cəmi 23 ay mövcud olmuş AXC hökumətinin həyata keçirdiyi iqtisadi islahatların əsas mahiyyətini, hədəflərini təhlil edərkən diqqəti bir məsələyə yönəldib: "Xüsusən aqrar islahatlar, torpaqların kəndlilərə verilməsi, mülkiyyətin bütün formalarına bərabər şəraitin yaradılması, maliyyə-vergi siyasəti, milli valyutanın buraxılması, dövlət bankının yaradılması, dövlət büdcəsinin formalaşdırılması, dağılmış infrastrukturun yenidən qurulması, sənayenin inkişafı istiqamətində atılan addımlar, xarici ticarət əlaqələrinin qurulması sahəsindəki mühüm addımları Cümhuriyyətin iqtisadi siyasətinin ana xəttini təşkil edirdi".

### *Azərbaycan İran əməkdaşlığı*

1919-cu ildə iqtisadi əməkdaşlıq qarşısında duran siyasi əngəllər öz-özünə yox oldu, nəticədə, iqtisadi əməkdaşlığın güclənməsi üçün yol açıldı. Mart ayında İranın kazak qoşunları Britaniyanın havadan göstərdiyi dəstəklə Kiçik Xanın qüvvələrini məğlubiyyətə uğratdı. Mərkəzi hökümət Ənzəli və Gilan üzərində nəzarətini bərpa etdi.

Eyni zamanda İranın müstəqil Azərbaycana müxalifliyi də zəiflədi. Siyasi məsələləri çözmək üçün Aərbaycan və İran arasında 1919-cu ilin yanvar və fevral aylarında bir sıra görüşlər keçirildi. Paris sülh konfransına Bakıdan keçib gedən İranın xarici işlər naziri Azərbaycanda baş nazir və digər rəsmilərlə danışıqlar keçirdi. Həmin səfər çərçivəsində İran diplomatiyasının başçısı İstanbulda üç dəfə Topçubaşovla görüşüb. 1919-cu ilin baharında İranla Azərbaycan arasında artıq konsensus əldə edilmişdi. Bakı Tehranı davamlı olaraq əmin edirdi ki, yeni respublikanın adı mövcud sərhədləri dəyişmək məqsədini güdmür. Respublikanın rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetində yazılmışdı ki, "İranın müstəqil və məsud yaşaması bizə əlverişlidir. Dövlətimizin "Azərbaycan" adlandırdığı sui-təfəhhümlərə səbəb oldu. Halbuki Təbriz əyalətinin, yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortalıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacağıq, bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır". İran hökuməti nəzərə alırdı ki, Azərbaycan faktoru İranı Rusiya ilə ümumi sərhədi bölüşmək ehtiyacından azad edirdi. İran Azərbaycanı yaranmaqda olan bufer zonası kimi görürdü, Rusiya isə bunun qarşısını almaq üçün zəif idi. Bu vəziyyət gələcəkdə Rusiya yenidən güclənərdisə şimaldan müdaxilələrin qarşısını önləyə bilərdi. Azərbaycan nümayəndə heyəti may ayında Parisə gələndə hər iki ölkənin təmsilçiləri əməkdaşlıq edirdi. Onlar razılıq imzalayaraq birgə komissiya təşkil etdilər. Həmin nümayəndə heyəti siyasət və hüquq, gömrük xidməti, tranzit daşımalar, qarşılıqlı ticarət, poçt və teleqraf xidməti kimi sahələrdə əməkdaşlıqla bağlı məsələləri müzakirə etmək üçün Bakıya gəlmişdi.

Adil xan Ziyadxanov başda olmaqla Azərbaycanınm ilk diplomatik nümayəndə heyəti isə Tehrana 1920-ci ilin yanvarında göndərildi. İran Azərbaycanı rəsmi sürətdə 1920-ci ilin martın 2-də tanıdı. Nəhayət, qarşılıqlı dostluq, gömrük, poçt və teleqraf, ticarət və konsullar barəsində bir sıra sənədlər paketi Novruz bayramının axşamı, martın 20-də imzalandı, aprelin 4-də isə həmin sənədlər qüvvəyə mindi. Bütün bu sazişlər hər iki Xəzəryanı dövlət üçün böyük həcmli ticarət və rifah vəd edirdi.

O dövr kəskin qıtlıq və yüksək inlfyasiya ilə müşayiət edilirdi, odur ki, ölkələr heç də həmişə ixracı dəstəkləmək həvəsi nümayiş etdirmirdi. Əksinə, bəzən ixrac edilən mallara rüsum qoyulurdu. Bu yolla ölkə daxilində təchizatı artırmaq və qiymətləri aşağı salmaq məqsədi güdülürdü.

Azərbaycan hökuməti də çox vaxt bu mövqedən çıxış edirdi. Bəzi qida məhsullarının ixracı qadağan olunmuşdu. Bu cür şərait təbii olaraq, qaçaqmalçılığı gücləndirirdi. Misal üçün, Muğanın taxılı və pambığı qaçaqmalçılıq yolu ilə İrana daşınırdı.

**Digər bir iqtisadi əngəl isə güclü valyutaya kəskin ehtiyac və etibarlı bank sisteminin olmaması idi. Bakıdakı hökümət də daxil, bir çox milli hökümətlər bu problemin öhdəsindən gəlmək üçün barterə üstünlük verirdi. Lakin barter ticarətin heç də sərfəli yolu deyildi. Hər iki tərəf mübadilə üçün uyğun mallar tapmalı idi və onlar eləcə də barterə çıxarılan malların qiyməti və valyuta kurslarına dair razılığa gəlməli idi. 1919-cu ilin martın 16-dan sonra Azərbaycan hökuməti xarici ticarətin həyata keçirilməsinə dair müvvəqqəti qaydaları tərtib etdi. Həmin müvəqqəti qaydalara əsasən, xarici ticarət barter yolu ilə aparılmalı idi. Lakin Azərbaycan hökuməti bir istisna hal kimi İranla ticarəti qarşılıqlı olmaq şərti ilə bartersiz aparmağa icazə verdi. İran üçün edilmiş bu istisna siyasəti ticarəti inkişaf etdirmək məqsədi daşıyırdı. Lakin Bakıya çatan məlumata görə, İran tərəfi ticarətin barter yolu aparılmasında təkid edirdi. Bakı isə şikayətli idi ki, bu şərt ticarət həcmlərini azaldır və qiymətlərin qalxmasına gətirib çıxarır. Lakin iyun ayında İrana ixracın həcmi elə yüksək olmuşdu ki, Bakı yenidən barter üsuluna qayıtmaq qərarına gəldi. Nəticədə İrana məhsul ixrac etmək istəyən tacirlər əvvəlcə İranda Azərbaycana gətiriləcək malları tapmalı idilər. Burada əlavə etmək lazımdır ki, siyasi və iqtisadi məsələlərə baxmayaraq, 1918-1919-cu illərdə iki ölkə arasında ikitərəfli və tranzit ticarət heç zaman kəsilməmişdi. Xüsusilə, düyü, çay, meyvə qurusu və balıq Azərbaycana İrandan gətirilirdi. İrana isə şəkər, kerosin və sənaye məhsulları daşınırdı.Ticarət və Sənaye naziri Ağa Əminovun dediyi kimi "hamıya məlumdur ki, bizim paytaxtımızdan, məmləkətimizdən İranın hesabsız malları və dövləti Avropaya götürülür və habelə Avropa malları məmləkətimizdən keçərək İrana gedir. Həmçinin İran məhsullatına bizim ehtiyacımız olduğu kimi bizim də məhsulatımıza İranın ehtiyası vardır. Bunun üçün bu iki qonşu məmləkətin iqtisadi həyatı və mənafeyidir."**

Ədil Ədilzadə

*Yazı "İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri arasında elan edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı" mövzusunda müsabiqəyə təqdim edilir*